

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 183 (21.084)

*25 sentyabr 2014-cü il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## 2014-cü ilin yanvar-avqust ayları üzrə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı

İqtisadi inkişafın əsas göstəricisi kimi 1 milyard 417 milyon 984 min 300 manatlıq Ümumi Daxili Məhsul istehsal olunmuşdur ki, bu da 2013-cü ilin yanvar-avqust ayları ilə müqayisədə 1 faiz çoxdur.

Hər bir nəfərə düşən Ümumi Daxili Məhsulun həcmi 2013-cü ilin yanvar-avqust ayları ilə müqayisədə 0,3 faiz artaraq 3244,8 manata (4137,2 ABŞ dollarına) çatmışdır.

* * *

Muxtar respublikada yaradılan Ümumi Daxili Məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 637 milyon 389 min manat həcmində məhsul istehsal edilmişdir ki, bu da 2013-cü ilin müvafiq dövründəki göstəricini 1,2 faiz üstələmişdir.

* * *

İnfrastruktur quruculuğu çərçivəsində əsas kapitala 620 milyon 18 min manat həcmində investisiya yönəldilmişdir ki, bunun da 540 milyon 482 min manatı və ya 87,2 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.



* * *

Cari ilin yanvar-avqust ayları ərzində informasiya və rabitə xidmətlərinin həcmi 31 milyon 53 min manatdan çox olmuşdur ki, bu da 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə 2 faiz çoxdur. Bu müddət ərzində mobil rabitə xidmətlərinin həcmi 26 milyon 224 min manatı ötməklə bir il öncəki göstəricini 0,9 faiz üstələmişdir.



* * *

Bu ilin yanvar-avqust ayları ərzində 232 milyon 99 min manat həcmində kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur ki, bu da 2013-cü ilin müvafiq dövründəki göstəricini 8,3 faiz üstələmişdir. Bu dövr ərzində muxtar respublikada 12,2 min ton ət (diri çəkidə), 59,9 min ton süd istehsal edilmiş, 2013-cü ilin yanvar-avqust ayları ilə müqayisədə ət istehsalı 3,1 faiz, süd istehsalı 0,3 faiz artmışdır.



* * *

Əhali gəlirlərinin artımı davam etməkdədir. Cari ilin yanvar-avqust aylarında muxtar respublikada əhalinin gəlirləri 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə 3,1 faiz artaraq 1 milyard 92 milyon 215 min manatdan çox, onun hər bir nəfərə düşən həcmi isə 1,5 faiz yüksələrək 2499,6 manat təşkil etmişdir.

* * *

2014-cü ilin yanvar-avqust aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqının məbləği 387 manat təşkil etmiş və əvvəlki ilin müvafiq dövrünə nisbətən 3,1 faiz artmışdır.

* * *

İqtisadi münasibətlərə paralel olaraq bank işi təkmilləşməkdədir. 1 sentyabr 2014-cü il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 33449-a çatmışdır ki, bunun da 30500-ü və ya 91,2 faizi aktiv hesablardır. 2014-cü ilin yanvar-avqust ayları ərzində açılmış 13175 bank hesabının 13119-u və ya 99,6 faizi aktiv hesablardır.



1 sentyabr 2014-cü il tarixə muxtar respublikada POS-terminalların sayı 692-yə çatmışdır ki, bu da 1 yanvar 2014-cü il tarixdəki göstəricidən 444 ədəd çoxdur.

* * *

Muxtar respublikada iqtisadi siyasətin əsas istiqaməti kimi xarici ticarət əlaqələrinin genişləndirilməsi davam etdirilməkdədir. Ötən dövr ərzində muxtar respublikanın 333 milyon 941 min Amerika Birləşmiş Ştatları dolları həcmində xarici ticarət dövriyyəsi olmuşdur ki, bu da bir il öncəki göstəricini 0,5 faiz üstələmişdir. İxracın həcmi son bir il ərzində 5,2 faiz artaraq 259 milyon ABŞ dollarını ötmüş və xarici ticarət üzrə 185 milyon ABŞ dollarına yaxın həcmdə müsbət saldo yaranmışdır. İdxalın həcmi bir il öncəyə nisbətdə 13 faiz azalmışdır.



* * *

Sahibkarlıq strukturlarının kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmaqdadır. 2014-cü ilin yanvar-avqust aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 37 milyon 17 min manatdan çox həcmdə kreditlər verilmişdir ki, bu da 2013-cü ilin müvafiq dövründəki göstərici ilə müqayisədə 26,4 faiz çoxdur.

* * *

2014-cü ilin yanvar-avqust aylarında muxtar respublikada bütün sığorta növləri üzrə daxilolmalar 3 milyon 824 min 400 manat olmuşdur ki, bu da 2013-cü ilin yanvar-avqust aylarındakı göstəricidən 443 min 600 manat və ya 13,1 faiz çoxdur.

* * *

Qeyd olunan dövrdə muxtar respublikaya 219 min 364 nəfər turist gəlmişdir ki, bu da 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə 2,3 faiz və ya 4932 nəfər çoxdur.

* * *

1 avqust 2014-cü il tarixə muxtar respublikada əhalinin sayı bir il öncəyə nisbətdə 5572 nəfər və ya 1,3 faiz artaraq 438034 nəfər təşkil etmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Müşavirədə qarşıya qoyulan tapşırıqların icrası ilə bağlı tədbir keçirilib

***Dünən Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində sentyabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun və Naxçıvan Muxtar Respublika Mükafatları Komissiyasının fəaliyyətinin təşkili barədə keçirilmiş müşavirədə qarşıya qoyulan tapşırıqların icrası ilə bağlı tədbir keçirilib. Muxtar respublikanın ümumtəhsil müəssisələri rəhbərlərinin iştirak etdiyi tədbiri Naxçıvan Muxtar Respublikasının təhsil naziri Piri Nağıyev açıb.***



Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini, Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Naxçıvan Muxtar Respublika Mükafatları Komissiyasının üzvü Məmməd Qəribov çıxış edərək bildirib ki, sentyabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun və Naxçıvan Muxtar Respublika Mükafatları Komissiyasının fəaliyyətinin təşkili barədə keçirilən müşavirədə qarşıya mühüm vəzifələr qoyulub. Qeyd olunub ki, Mükafat Komissiyasının yaradılmasında əsas məqsəd muxtar respublikada yaradıcı insanların potensialından düzgün istifadə etmək, onları yüksək səviyyəli əsərlər yaratmağa təşviq etməkdən ibarətdir. Eyni zamanda muxtar respublika əhalisinə milli-mənəvi və dini dəyərlərin təbliğini, regionda baş verən ictimai-siyasi və sosial-iqtisadi proseslərin mahiyyətini çatdırmağı qarşısına məqsəd qoyan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu əhalinin maarifləndirilməsi istiqamətində həyata keçirilən tədbirləri stimullaşdırmağa geniş imkanlar açacaq. Məhz qeyd olunan bu məsələlərin həllində muxtar respublikamızın elmi-texniki, mədəni, tarixi potensialından lazımınca istifadə etmək fondun qarşısında duran əsas məsələlərdəndir. Bu baxımdan elm və təhsil müəssisələrinin üzərinə mühüm vəzifələr düşür. Bu müəssisələrdə çalışan yaradıcı insanlar tərəfindən elmi əsərlərin yazılmasına tələbkarlıq artırılmalı, yazılan hər bir əsər, təqdim olunan hər bir layihə əhəmiyyəti ilə bərabər, araşdırma nəticələrini də özündə əks etdirməlidir. Bundan əlavə, orta ixtisas təhsili və ümumtəhsil məktəblərində təhsil alan tələbə və şagirdlərin bilik və bacarıqlarının artırılmasının stimullaşdırılması, onların elmi biliklərə yiyələnməsində mütərəqqi ideyaların tətbiq edilməsi müəllim kollektivlərinin qarşısında duran əsas vəzifələrdəndir.

Sonra Babək və Culfa Rayon Təhsil şöbələrinin müdirləri Kamil Kazımov və Adəm Qasımovun çıxışları olub.

Tədbirə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Piri Nağıyev yekun vurub.

✍ **Səbuhi HƏSƏNOV**

## Sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası üçün multisensorlu terapiya otağı yaradılıb

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar muxtar respublikamızda müxtəlif tədbirlər həyata keçirilir. Bu tədbirlərin davamı olaraq, Naxçıvan Uşaq Bərpa Mərkəzində multisensorlu terapiya otağı yaradılıb.***



Qeyd edək ki, serebral iflici diaqnozu olan, autizm sindromlu, hiperaktiv uşaqların reabilitasiyasında (orqanizmin itirilmiş funksiyalarının bərpa edilməsində) multisensorlu terapiya əsas vasitədir. Bu otaq müxtəlif psixo-nevroloji problemləri, autizm, adaptasiya pozğunluğu, həmçinin uşaq serebral iflici, hərəkət məhdudiyyətliliyi, nitq qüsurları kimi problemləri olan uşaqlar üçün nəzərdə tutulub.

Burada reabilitasiya seansları sağlamlıq imkanları məhdud uşaqların psixoemosional vəziyyətinin yaxşılaşmasına, onların narahatlıq və aqressiyasının azalmasına, qorxu və sinir gərginliyinin aradan götürülməsinə, həmçinin psixoloq və uşaq arasında ünsiyyətin yaradılmasına köməklik edir. Bu müalicə üsulu mərkəzi sinir sisteminin fəaliyyətini aktivləşdirir, sensor funksiyaların (eşitmə, hissetmə, qoxubilmə və sair) stimulyasiyasına kömək edir. Bu korreksiya metodu uşaqların psixi inkişafına müsbət təsir göstərərək onlarda yaddaş və qavrama qabiliyyətini gücləndirir, uşaqların diqqətinin artması nəticəsində hiperaktivlikləri azalır.

Naxçıvan Uşaq Bərpa Mərkəzinin baş həkimi Şəhla Əhmədovanın verdiyi məlumata görə, bu otağın yaradılmasında məqsəd sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyasını sürətləndirməklə onların cəmiyyətə inteqrasiyasını təmin etməkdir. Baş həkim onu da bildirdi ki, sensor otaqda, əsasən, sakitləşdirici və fəallaşdırıcı məşğələlər təşkil edilir. Müalicə kursunun davametmə müddəti fasiləsiz 2-3 həftədir. İlk iki seans 10 dəqiqədən artıq olmayacaq.

Qeyd edək ki, otaq uşaqlarda müsbət emosional fon yaranmasına kömək edən əyləncəli formada qurulub. Belə ki, divar və döşəməyə quraşdırılan yumşaq panellər rəngli işıq lampaları olan ulduzlu tavan ilə əhatə olunub. Otaqda yumşaq kürəciklərdən ibarət kiçik şəffaf toplarla dolu "hovuz", eyni zamanda uşaqlarda xoş duyğular yaratmaq məqsədilə divara hərəkətli şəkillər salan proyektor, kiçik musiqi mərkəzi, neon iplər, müxtəlif növ rəngli fiber-optik işıqlar, ətirli qoxular yayan qoxu generatoru və terapiya yelləncəyi vardır.

Bu qəbildən olan uşaqların valideynləri yaradılan belə şəraitə görə muxtar respublika rəhbərinə minnətdarlıqlarını bildirdilər.

✍ **Sara ƏZİMOVA**

# Naxçıvan Muxtar Respublika Mükafatının təsis edilməsini, Bilik Fondunun yaradılmasını muxtar respublika ziyalıları minnətdarlıqla qarşıladı

*Son 19 ildə muxtar respublikada aparılan genişmiqyaslı işlər, həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində ulu diyarımız Naxçıvan yüksələn xətt üzrə inkişaf etmişdir. Bu inkişafın əldə olunmasında bölgədə həyatın bütün sahələrinə, o cümlədən elmimizə, təhsilimizə, mədəniyyətimizə göstərilən yüksək dövlət qayğısı mühüm və əhəmiyyətli rol oynamışdır.*

Bu dövrdə Naxçıvan Muxtar Respublikasında elmimizin baş qərargahı kimi dəyərləndirilən Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi yaradılmış, bundan sonra elmin müxtəlif sahələri üzrə aparılan elmi-tədqiqat işləri sistemli xarakter almış, aparılan araşdırmaların kəmiyyət və keyfiyyəti xeyli yüksəlmişdir. AMEA Naxçıvan Bölməsində və Naxçıvan Dövlət Universitetində Dissertasiya şuraları yaradılmış, müxtəlif elm sahələri üzrə 30-dan çox elmlər doktoru, 200-dən çox fəlsəfə doktoru hazırlanmışdır. Ərazidə çoxlu arxeoloji ekspedisiyalar, o cümlədən iki beynəlxalq ekspedisiya tədqiqatlar aparmış, uğurlu nəticələr əldə edilmişdir. Naxçıvan şəhərində müxtəlif vaxtlarda beynəlxalq konfrans və simpoziumlar keçirilmişdir. 1202 tarix-mədəniyyət abidəsi qeydə alınaraq pasportlaşdırılmış, 60-dan artıq memarlıq abidəsi yüksək səviyyədə bərpa olunmuşdur. Bir sıra nəşriyyatlar işə başlamış, çoxlu elmi jurnallar işıq üzü görmüşdür. Alimlərimiz tərəfindən fundamental ümumiləşdirici əsərlər hazırlanmış, çoxlu monoqrafiyalar, kitablar, dərsliklər və metodik vəsaitlər nəşr etdirilmişdir. Nəticədə, Naxçıvan Muxtar Respublikası inkişaf etmiş elm, təhsil və mədəniyyət mərkəzinə çevrilmişdir.

Qeyd olunan bu uğurların qazanılmasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun imzaladığı bir sıra fərman və sərəncamların böyük rolu olmuşdur. Mühüm siyasi-tarixi əhəmiyyətə malik dövlət sənədləri olan bu fərman və sərəncamlar alimlərin diqqətini müəyyən istiqamətlərə, aktual problemlərə yönəltmiş, nəticədə, bir sıra uğurlu işlər həyata keçirilmiş, tariximizin və mədəniyyətimizin müxtəlif problemlərinə dair sanballı nəticələrin əks olunduğu dəyərli əsərlər ərsəyə gəlmişdir.

Elmi ictimaiyyətə yaxşı məlumdur ki, muxtar respublikada hər hansı bir məsələ ilə əlaqədar lazımi şərait yarandıqda, məqam yetişdikdə Ali Məclisin Sədri onunla əlaqədar qərarlar qəbul etmiş, mühüm sərəncamlar imzalamışdır. Məsələn, Naxçıvan Muxtar Respublikasında alimlərin tədqiqatlarının nəticəsi olaraq, zəngin elmi xəzinə yarandığını, böyük nailiyyətlər əldə olunduğunu nəzərə alaraq bu nailiyyətləri bir yerə toplamaq, qoruyub gələcək nəsillər üçün saxlamaq, sistemli şəkildə salmaq, kütləvi informasiya vasitələri ilə yaymaq, təbliğ etmək, ən yaxşılarını mükafatlandırmaq üçün təqdim etmək, onların fondunu, arxivini yaratmaq məqsədilə Ali Məclisin Sədri 17 fevral 2011-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin yaradılması haqqında Sərəncam imzalamışdır. Yaxud da Azərbaycanın tərkib hissəsi kimi Naxçıvanın tarix və mədəniyyətinin müxtəlif problemləri ilə əlaqədar geniş tədqiqat işlərinin aparılmasını, uğurlu nəticələr əldə edilməsini, bununla əlaqədar çoxlu monoqrafiyalar, kitablar, məqalələr yazılaraq elmi dövriyyəyə daxil edilməsini, muxtar respublikada yaradılan zəngin elmi-tədqiqat bazasının və kadr potensialının Naxçıvan tarixi ilə əlaqədar ümumiləşdirici bir əsərin hazırlanmasına və nəşrinə imkan verməsini nəzərə alaraq Ali Məclisin Sədri 6 avqust 2012-ci ildə "Naxçıvan tarixi" çoxcildliyinin hazırlanması və nəşr olunması barədə" Sərəncam imzalamışdır.

Bu baxımdan Ali Məclis Sədrinin 23 avqust 2014-cü ildə imzaladığı "Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Naxçıvan Muxtar Respublika mükafatlarının təsis edilməsi, Mükafat Komissiyasının yaradılması və Əsasnaməsinin təsdiq olunması haqqında" və 4 sentyabr 2014-cü ildə imzaladığı "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təsis edilməsi haqqında" fərmanlar Naxçıvan Muxtar Respublikasında elmə, texnikaya, mədəniyyətə və ədəbiyyata dövlət qayğısının yeni təzahürü kimi diqqəti cəlb edir. İmzalanan fərmanlarla elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Naxçıvan Muxtar Respublikası mükafatları təsis edilmiş, bununla əlaqədar Mükafat Komissiyası yaradılmış, həmçinin Ali Məclisin Sədri yanında Bilik Fondu təsis edilmiş, Mükafat Komissiyasının Əsasnaməsi, Bilik Fondunun isə Nizamnaməsi təsdiq olunmuşdur.

Öz fəaliyyətində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarını və qanunlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarını və öz Nizamnaməsini rəhbər tutan, Naxçıvan Muxtar Respublikası əhalisinin elmi-texniki, siyasi-ictimai, sosial-iqtisadi, ekoloji və humanitar biliklərinin artırılmasına xidmət edən, qloballaşma şəraitində cərəyan edən prosesləri təhlil etmək bacarığı aşılayan, Azərbaycançılıq məfkurəsinin, o cümlədən Naxçıvanşünaslığın mahiyyətini və milli-mənəvi, dini dəyərləri təbliğ edən, dövlət siyasətinin mahiyyətini ictimaiyyətə çatdıran qeyri-kommersiya qurumu olan, hüquqi şəxs kimi dəyərləndirilən Bilik Fondunun yaradılması, eyni zamanda Əsasnaməsinə görə, iki ildən bir Naxçıvan Muxtar Respublikasının yaradıldığı gün – 9 fevral ərəfəsində dövlət büdcəsinin vəsaiti hesabına verilməsi nəzərdə tutulan, elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə hər biri 5000 (beş min) manat məbləğində 5 (beş) Naxçıvan Muxtar Respublika Mükafatının təsis edilməsi muxtar respublikada elmimizə, elmi ictimaiyyətə dövlət qayğısının yeni və möhtəşəm bir təzahürüdür.

Fərmanların imzalanmasından az sonra, 16 sentyabr 2014-cü ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun və Naxçıvan Muxtar Respublika Mükafatları Komissiyasının fəaliyyətinin təşkili ilə əlaqədar müşavirə keçirilmişdir. Müşavirədə Ali Məclisin Sədri cənab Vasif Talıbov çıxış edərək imzaladığı fərmanlarla Naxçıvan Muxtar Respublika mükafatlarının təsis edilməsi, Mükafat Komissiyasının, Bilik Fondunun yaradılmasında məqsəd və qarşıda duran vəzifələrdən danışmış, bununla bağlı bir sıra tövsiyə və tapşırıqlar vermişdir: ***"Fond muxtar respublika əhalisinin maarifləndirilməsi məqsədi ilə tədbirlər təşkil etməli, əhaliyə dolğun biliklər çatdırmalıdır. Həmçinin Naxçıvanşünaslığın mahiyyətini, milli-mənəvi və dini dəyərləri təbliğ etməlidir. Xeyriyyə marafonlarının və mədəni-kütləvi tədbirlərin keçirilməsi Bilik Fondunun fəaliyyət istiqamətlərindən olmalı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu ilə birlikdə gənclərlə işin təşkili üçün tədbirlər planı hazırlanmalıdır. Gənclərin biliklərinin, bacarıqlarının, peşəkarlıq səviyyələrinin və dünyagörüşlərinin inkişafına dəstək verilməlidir".***

Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Naxçıvan Muxtar Respublika Mükafatları Komissiyasının qarşısında duran vəzifələrdən bəhs edərkən Ali Məclisin Sədri qeyd etmişdir ki, komissiya ilkin olaraq zəruri təşkilati işlər görməli, elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat sahələri üzrə ən dəyərli əsər, yaxud layihələrin seçilməsinə ciddi yanaşmalı və tələbkar olmalıdır. Diqqət etmək lazımdır ki, mükafata təqdim edilən əsərlər elmin, texnikanın, memarlığın, mədəniyyətin və ədəbiyyatın inkişafına mühüm töhfələr verən əsərlər olsun. Onlar fundamental və tətbiqi elmi araşdırmaların nəticələrini özündə əks etdirməlidir.

Ali Məclisin Sədri çıxışında əməkdaşı olduğum Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin də qarşısında mühüm vəzifələr qoymuşdur: ***"Bilik Fondu Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi ilə birlikdə təhlil və tədqiqatların aparılmasına da xüsusi yer ayırmalı, dövlət siyasətinin mahiyyəti ilə bağlı materialların hazırlanaraq mətbuatda yayılmasını diqqətdə saxlamalı, elmi konfranslar, seminarlar, dəyirmi masalar və disputlar təşkil etməlidir".***

Həmçinin müşavirədə Bilik Fonduna Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi, dövlət idarə və təşkilatları, ali təhsil müəssisələri ilə birlikdə mükafat üçün təqdim edilən əsərlərin ciddi şəkildə müzakirə olunması haqqında da tapşırıq verilmişdir.

Haqqında bəhs olunan fərmanlar və bu fərmanlar əsasında yaradılan qurumlar, onların Əsasnaməsi və Nizamnaməsi muxtar respublikanın elmi ictimaiyyəti tərəfindən razılıq və minnətdarlıq hissi ilə qarşılanır. Heç şübhəsiz ki, Ali Məclis Sədrinin imzaladığı bu fərmanlar Naxçıvan Muxtar Respublikasında elmi-tədqiqat işlərinin genişlənməsinə, daha da sistemli xarakter almasına və canlanmasına, səmərəliliyinin və keyfiyyətinin yüksəlməsinə səbəb olacaq, yüksəksəviyyəli əsərlər yaratmaq üçün indiyədək bir sıra dəyərli əsərlər yazmış və yazmaqda olan alimlərimiz arasında yaxşı mənada yarış başlanacaqdır. Bu isə, nəticə etibarilə, Naxçıvan Muxtar Respublikasında elmimizin, mədəniyyətimizin və ədəbiyyatımızın daha da inkişaf etməsinə gətirib çıxaracaqdır.

AMEA Naxçıvan Bölməsinin yaradılması münasibətilə 12 avqust 2002-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə xalqımızın ümummilli lideri Heydər Əliyev belə bir fikir söyləmişdi: ***"Mən bəzən çox vacib sərəncamlar verirəm. Ancaq çox təəssüflər olsun ki, icraçılar o sərəncamın ruhunun səviyyəsinə qalxa bilmirlər. Onun hərfi mənasını da düzgün anlaya bilmirlər. Görürsən ki, gözəl sərəncam, gözəl təşəbbüs bir müddətdən sonra batmağa məruz qalır".*** Məhz buna görə tədqiqatçılarımız göstərilən dövlət qayğısına cavab olaraq öz bilik və bacarıqlarını maksimum səfərbərliyə alaraq səylə çalışmalıdırlar ki, elmimiz və mədəniyyətimiz üçün çox böyük əhəmiyyət kəsb edən bu fərmanların ruhunun səviyyəsinə qalxsınlar və fərmanlardan irəli gələn vəzifələrin, həmçinin Ali Məclisdə keçirilən müşavirədə Ali Məclisin Sədri cənab Vasif Talıbov tərəfindən verilən tapşırıqların uğurlu həllinə nail ola bilsinlər.

*Heç şübhəsiz ki, Ali Məclisin Sədri tərəfindən imzalanan bu mühüm dövlət sənədləri Naxçıvan Muxtar Respublikasında yaradılan münbit elmi mühitin daha da inkişaf etməsinə öz layiqli töhfəsini verəcək, bu istiqamətdə aparılan işlərin səviyyəsinin yüksəlməsinə, keyfiyyətinin artmasına səbəb olacaq, yaradıcı ziyalıları daha sanballı əsərlər yaratmağa həvəsləndirəcək və bu işlərin yerinə yetirilməsinə zəmin yaradacaqdır.*

**Fəxrəddin SƏFƏRLİ**, *AMEA-nın müxbir üzvü*

# Təhsilə dövlət qayğısı uğurları daha da artırır

***Bir neçə gün bundan əvvəl ölkəmizin hər yerində yeni dərs ilinin başlandığını bildirən zənglər çalındı, yeniyetmə və uşaqlar onlar üçün uğurlu gələcəyin yollarını düzgün müəyyənləşdirməkdə ən böyük yardımçıları olan məktəb qapılarından içəri daxil olaraq siniflərdə öz yerlərini tutdular. Bir sözlə, üçaylıq sükutdan sonra təhsil ocaqları yenidən səsli-küylü günlərinə qovuşdu. Hər təzə dərs ili yeni-yeni arzuların başlanğıcıdır. Məktəb isə gələcəklə bağlı müxtəlif arzuları ürəyində yaşadan yüz minlərlə insanı – şagirdləri və müəllimləri özündə cəmləşdirən müqəddəs bir məkandır. Bu məkana ehtiramla yanaşmaq hər kəsin vətəndaşlıq borcudur.***

Ötən dərs ilinin yekunlarına və qazanılmış nailiyyətlərə nəzər saldıqda aşkar görünür ki, Sədərək Rayon Təhsil Şöbəsində də bu məsələyə, doğrudan da, məhz vətəndaşlıq yanğısı ilə yanaşılır. Necə deyərlər, yekunlar barədə danışmağa fakt da var, ortaya çıxarılası uğurlu nəticələr də.

Təhsil Şöbəsindən aldığımız məlumata görə, rayonda 4 tam orta məktəb, 4 məktəbdənkənar təhsil müəssisəsi fəaliyyət göstərir. Cari dərs ilində ümumtəhsil məktəblərində 1234 şagird təhsil alır. Şagirdlərin təlim-tərbiyəsi ilə 116 müəllim məşğul olur.

Məktəblərdə təhsilin keyfiyyətinin yüksəldilməsi üçün mütərəqqi təlim metodlarından istifadəyə, qabaqcıl təcrübənin tətbiqinə üstünlük verilir. Fənlər üzrə yeniliklərin tətbiqi, nöqsanların aradan qaldırılması yolları müəllimlərin müzakirə mövzusu olmuşdur.

Ümumtəhsil məktəblərində fiziki tərbiyə dərslərinin tədrisinin qarşıya qoyulan səviyyədə qurulması üçün ixtisaslı mütəxəssislərin iştirakı ilə reydlər keçirilir, təhsil şurasının iclaslarında bu məsələ məktəb rəhbərlərinin iştirakı ilə müzakirə edilir. Fiziki tərbiyə dərslərinə diqqət yetirilməsinin nəticəsidir ki, bu ilin may ayında ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş futbol üzrə məktəblilərin muxtar respublika turnirində Sədərək kənd 1 nömrəli tam orta məktəbin komandası çempion olmuşdur.

Sərhəd bölgəsi Sədərəkdə məktəb tikintisi də diqqət mərkəzində saxlanılır. Yeni inşa olunan Sədərək kənd 2 nömrəli tam orta məktəbin binası son illərin ərməğanlarındandır. Bu il isə Sədərək kənd 1 nömrəli tam orta məktəbin binası əsaslı təmir və yenidənqurmadan sonra müəllim və şagirdlərin ixtiyarına verilmişdir. Hazırda isə Heydərabad qəsəbəsində rayon Təhsil Şöbəsi üçün yeni bina tikilir. Rayonun təhsil ocaqlarına lazımi avadanlıqlarla təmin olunmuş laboratoriyalar, kompüter otaqları və elektron lövhəli siniflər, kifayət qədər dərslik və bədii ədəbiyyatları olan kitabxanalar, idman zalları və sair fəaliyyət göstərir. Bütün bunlar şagirdlərin mükəmməl bilik qazanmasına xidmət edir.

Sədərəkdə informasiya və kommunikasiya texnologiyalarının tədris müəssisələrində tətbiqi ilə bağlı kifayət qədər iş görülmüşdür. Rayonun ümumtəhsil müəssisələrində 151 dəst kompüter vardır ki, bu da 8 şagirdə 1 kompüter düşməsi deməkdir. Bundan başqa, təhsil ocaqlarında şagirdlər 16 elektron lövhəli sinifdən istifadə edirlər. Məktəb kitabxanalarında isə 27 min 685 nüsxə dərslik və bədii ədəbiyyat mövcuddur.

Ötən tədris ili ərzində rayonun ümumtəhsil məktəblərinin şagirdləri muxtar respublika səviyyəsində keçirilən bir sıra müsabiqələrdə fəal iştirak etmişlər. Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyinə həsr olunmuş müsabiqə aprelin 30-da keçirilmişdir. Həmin müsabiqəyə Sədərək kənd 1 nömrəli tam orta məktəbin şagirdi Abbas Abbaslı da qatılmış, onun "Naxçıvan doğma diyardır" mövzusunda yazdığı inşa-yazı işi ikinci yerə layiq görülmüşdür.

Rayonun ayrı-ayrı məktəblərində müxtəlif tədris fənləri üzrə açıq dərslər təşkil olunur, digər məktəblərin ixtisas müəllimlərinin orada iştirakı təmin edilir. Ümumiyyətlə, müəllimlərin elmi-nəzəri və peşəkarlıq səviyyəsinin yüksəldilməsi istiqamətində ardıcıl iş aparılır. Fəal təlim metodlarının tətbiqi ilə bağlı daim qabaqcıl müəllimlərin iş təcrübəsi öyrənilir, fikir mübadilələrinə geniş yer verilir. Müəllimlərə elmi-metodik köməklik göstərilməsində, yeni fənn kurikulumlarının tətbiqində metodkabinetin fəaliyyəti daha da gücləndirilmişdir. Müəllimlərin nəzəri və təcrübi biliklərini artırmaq məqsədilə keçirilən seminarların da əhəmiyyəti böyükdür. 2014-2015-ci dərs ilində rayonun ümumtəhsil məktəblərinin VII siniflərində dərs deyəcək 30 müəllim kurikulum təliminə hazırlıqla bağlı seminara cəlb edilmiş, onlara yeni təlim metodlarından istifadə yolları aşılanmışdır.

Bəs bu il Sədərəkdə ali məktəblərə qəbulun nəticəsi necə olmuşdur? Sualımızı rayon Təhsil Şöbəsinin müdiri Malik İsmayılov cavablandırdı:

– Cəmiyyətdə belə bir fikir formalaşıb ki, təhsil ocaqlarında görülmüş işlərin səviyyəsi ali məktəblərə qəbul zamanı məlum olur. Əgər bu fikir həqiqəti özündə əks etdirirsə, onda biz tam orta məktəblərimizin illik fəaliyyətindən məmnunluqla danışa bilərik. Çünki sonuncu dərs ilində attestat almış sədərəkli məzunların ali məktəblərə qəbul göstəricisi pis deyil. 2014-cü ildə 77 nəfər orta məktəb məzunu ali məktəblərə sənəd vermişdir ki, onların da 35 nəfəri tələbə adını qazanmışdır. Məzunlardan 2 nəfəri 500-dən, 1 nəfəri isə 600-dən yuxarı bal toplamışdır. 6 məzunumuz orta ixtisas məktəblərinə, 1 şagirdimiz isə Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunmuşdur. Əlbəttə, yeni tədris ilində daha böyük nəticələr gözlənilir.

Təhsil Şöbəsinin müdiri onu da xüsusi vurğuladı ki, Azərbaycanda, eləcə də muxtar respublikamızda təhsilin inkişafı və xalqımızın gələcəyi üçün sağlam vətəndaşların yetişdirilməsi ümummilli məsələyə çevrilmişdir. Bu, ilk növbədə, dövlətin müəyyənləşdirdiyi təhsil strategiyasının tələbidir. Dövlət başçısı və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri qeyd edirlər ki, hansı sahədə fəaliyyət göstərməyimizdən asılı olmayaraq, hər birimiz bu ali məqsədin reallaşmasında yaxından iştirak etməliyik. Çünki xalqımızın gələcəyi və sivilizasiyalı dünyaya inteqrasiyanın yeganə yolu məhz təhsilin inkişafından keçir. Biz, Sədərək rayonunun təhsil ictimaiyyətinin bütün nümayəndələri həmin çağırışı əsas tutaraq, təmsil etdiyimiz sahənin daha da inkişaf etməsi üçün yeni dərs ilində və qarşıdakı bütün illərdə daha böyük səy və əzmkarlıqla çalışacağıq. Məqsədimiz bilikli, vətənpərvər övladlar yetişdirməkdir. Bunu zaman tələb edir, dövlətimizin daha da qüdrətlənməsi, xalqımızın daha firavan yaşaması üçün düşünülmüş siyasət tələb edir.

**C.ƏLİYEV**

*Müasirləşən kəndlərimiz*

# Aşağı Yaycı yeniləşmə dövrünü yaşayır

### *Qədim abidələri ilə tanınan yurd yeri*

Rayon mərkəzindən 13 kilometr aralıda yerləşən Aşağı Yaycı kəndi Şərurun qədim yaşayış məskənlərindən biridir. Yaycılılar qədim türkdilli tayfalardan biri hesab olunur. Aşağı Yaycı kəndinin cənub tərəfindən aşkar olunmuş Yaycı nekropolundan tapılmış ox ucluqları və yaylar, kənddəki abidələr, tapılan saxsı qablar Tunc və Dəmir dövründən xəbər verir. Yaycılılar əvvəlcə dağlar qoynunda, yəni indiki Yuxarı Yaycıda, Ağbulaq adlanan ərazinin ətrafında məskən salmışlar. Əhali artdıqca sakinlərin bir hissəsi nisbətən aşağıda, Arpaçayın sahilində məskunlaşmışdır. Beləliklə, ikinci kənd də yaranmış və bura Aşağı Yaycı adlandırılmışdır.

Aşağı Yaycı kəndi Uzunqaya dağ silsiləsinin Arpaçaya endiyi yerdə yerləşir. Arpaçay vadisi, Mayılxan düzü dağlarla əhatə olunmuşdur. Buradakı daş divarların qalınlıqlarını e.ə. II-I minilliklərə aid etmək olar. Fərhad arxı öz başlanğıcını Qız qalasının yaxınlığından, Arpaçaydan götürür. Uzunluğu 30 kilometr, eni 2,4, dərinliyi 2-3 metrdir. Kanal qədim zamanlarda Şərur düzünün şimalında və cənubunda olan əkin sahələrini suvarmaq üçün istifadə edilmişdir. Kənddəki Qalacıq arxı da e.ə. II minilliyin ortalarında qazılmış ölkə əhəmiyyətli arxeoloji abidə hesab olunur. Aşağı Yaycı həm də qədim abidələri ilə məşhurdur.

### *Yaşlı sakinin dedikləri*

Ta qədimdən Yaycıda kişilər dulusçuluq, dəmirçilik, dülgərlik, ovçuluq, bənnalıqla, qadınlar isə toxuculuq və xalçaçılıqla məşğul olmuşlar. 1941-1945-ci illər müharibəsi dövründə sənətkarlığın bu sahələrinə diqqət azalmışdır. Kəndin kişiləri cəbhəyə yollanmış, qadınların ev, məişət qayğıları ilə yanaşı, gecə-gündüz arxa cəbhədə ağır təsərrüfat işləri ilə məşğul olması onları toxuculuq peşəsindən ayırmışdır. Bu haqda mənə sinni 80-i aşmış Xədicə nənə danışdı. Onu da deyim ki, Xədicə nənə çox qıvraq, gümrah qalıb. Bunun səbəbini soruşdum. Cavabı belə oldu:

– Nə bilim, ay oğul, bu yaşacan bir iynə vurdurmamış, bir dərman atmamışam. Sapsağlam olmağımın səbəbini daha çox süd-qatıq, pərpencər yeməyimdə görürəm. Dağlarımızda nələr bitmir? Ələyəz, əvəlik, cincilim, qazayağı, quzuqulağı, quşdili, xatınbarmağı, tərə, çaşır, bolu, cacıq, unnuca, südləyən, acıqıcı, gicitkən... saymaqla qurtarmaz, oğul. Qış yeməklərim isə bunlardır: tərhalva, hörrə, hərsə, xəşil, quymaq, ərik qaysavası, əriştə və qovurmalı umac aşı.

### *Aşağı Yaycı Şərurun müasir yaşayış məntəqələrindən biridir*

Kəndin mərkəzində müasir binalar inşa edilmişdir. İkimərtəbəli, yaraşıqlı məktəb binası diqqətimi cəlb etdi. Aşağı Yaycı kənd tam orta məktəbinin direktoru Yeganə Məmmədova ilə görüşmək qərarına gəldim. Onu yaxından tanıyırdım. YAP Şərur Rayon Təşkilatı Qadınlar Şurasının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatıdır. Onun dediklərindən:

– 2008-ci ilə qədər köhnə binada fəaliyyət göstərmişik. Təbii ki, belə şəraitdə yüksək uğur qazanmaqdan danışmaq da mümkün deyildi. Muxtar respublikada təhsil sahəsinə göstərilən qayğının getdikcə artdığını gördə inanırdıq ki, nə vaxtsa bizim kənddə də yeni məktəb binası tikiləcək. Çox gözləməli olmadıq. Zəngin kitabxanası, fənn kabinələri, laboratoriyaları, geniş, işıqlı sinif otaqları olan bu məktəb binası yaxşı işləmək əzmimizi də, məsuliyyətimizi də artırıb. 224 şagird yerlik məktəb binasında hazırda 133 şagird oxuyur. Onların təlim-tərbiyəsi ilə 20 müəllim məşğul olur. Məktəbdə hər 12 şagirdə bir kompüter düşür. Şagirdlərin Vətənə məhəbbət ruhunda tərbiyə edilməsinə, dövlətçiliyimizə sadiq gənclər kimi yetişməsinə çalışan kollektiv göstərilən qayğıya əməli işlə cavab verməyə səy göstərir. Elə bunun nəticəsidir ki, məktəbi bitirən gənclərimizin ali məktəblərə qəbul faizi də ildən-ilə yüksəlir. Təkcə bu il 12 məzunumuzdan 7 nəfəri ali məktəb tələbəsi adını qazanmışdır. Onlardan 2 nəfəri 500-dən çox bal toplamışdır.

Kənd əhalisinin, demək olar ki, heç bir çətinliyi yoxdur. Müxtəlif dərman bitkiləri və yabanı meyvələrlə dolu əsrarəngiz təbiətimiz, bol meyvəli bağlarımız bizə ata-babalarımızdan miras qalan kəndimizi dərin məhəbbətlə sevdirir. Bir də insana öz doğma yurdundan əziz nə ola bilər? Müasir tələblərə cavab verən və hər cür avadanlıqlarla təchiz olunan məktəb binası ilə yanaşı, kənd mərkəzinin, həkim ambulatoriyasının, ticarət mərkəzinin inşa olunması, Naxçıvan-Sədərək avtomagistralından başlayıb Aşağı Yaycı kəndindən keçməklə Gümüşlüyədək uzanan 14 kilometrlik yola asfalt döşənməsi, kəndin hər bir evinə mavi yanacağın verilməsi biz sakinlərə göstərilən böyük qayğıdır. Bu qayğı qarşımıza mühüm vəzifələr qoyur.

Yurd yerimizdə əmin-arxayın yaşayırıq. Ona görə ki, əzəmətli dağların zirvələrində, səngərlərdə Vətən oğulları torpaqlarımızı layiqincə qoruyur, ayıq-sayıq xidmət göstərirlər. Sərhədlərimiz etibarlı əllərdədirsə, deməli, insanlar da rahat, firavan yaşaya bilərlər.

### *Sakinlər, əsasən, heyvandarlıq və bitkiçiliklə məşğul olurlar*

İnzibati ərazi dairəsi üzrə nümayəndə Mirnemət Seyidovla da söhbətləşdik. Dedi ki, bütün dağ kəndləri kimi, Aşağı Yaycıda da heyvandarlığın inkişafına maraq ildən-ilə artır, kənd adamları dədə-baba sənətini inkişaf etdirməyə ciddi önəm verirlər. Zəhmətlərinin də bəhrələrini görürlər. Bu da insanları torpağa daha sıx tellərlə bağlayır.

Aşağı Yaycının 3348 hektar ümumi sahəsi var. Aqrar islahatlar zamanı 462 təsərrüfatı, 1702 nəfər əhalisi olan kənddə 146 hektar əkinəyararlı sahə pay torpağı kimi əhalinin istifadəsinə verilib. 411 baş qaramal, 1282 baş davar bəslənilir. Mirzə Əliyevi, Əşrəf Səfərovu, Camal Həsənovu, Əsgər Həkimovu, Tofiq Mirzəliyevi kənddə təcrübəli heyvandarlar kimi tanıyırlar. Mirzə Əliyevin 150 başa yaxın iribuynuzlu heyvanı var, ildən-ilə onların baş sayını artırır. Pay torpaqlarına yonca əkib, "Aqrolizinq" xətti ilə traktor alıb, minik maşını, yük maşını var. Oğlanları Mahir və Əhməd də ataları ilə birlikdə mal-heyvan bəsləyir, var-dövlətlərini artırır, firavan yaşayırlar.

Dağ kəndinin coğrafi şəraiti ilə iqlim xüsusiyyətləri burada arıçılığın da inkişafına imkan verir. Bu gün Aşağı Yaycıda 381 arı ailəsi saxlanılır. Arıçılar İsrafil Babayev, Əhməd Mirzəliyev, Tarverdi Salahov söhbət zamanı bildirdilər ki, yaxşı qulluq edilən hər arı ailəsindən ildə 15-20 kiloqram bal götürmək mümkündür. Aşağı Yaycıda bu rəqəm bir qədər də yüksək olur. Həm də keyfiyyətinə görə aran yerlərdə istehsal olunan baldan xeyli üstündür. Odur ki, kənd adamlarının arıçılığın inkişafına marağı getdikcə artır. Çox zəhmət tələb etsə də, bu sahə ilə məşğul olanların əməyi hədər getmir, onlar istehsal olunan məhsulun satışında da heç bir problemlə üzləşmirlər.

Aşağı Yaycıda bu il təsərrüfatın digər sahələrində də yaddaqalan uğurlar qazanılmışdır. Ötən dövrdə 315 ton taxıl, 110 ton tərəvəz, 60 ton kartof, 25 ton dən qarğıdalı, 150 ton meyvə istehsal olunmuşdur.

### *"Dağlar dağımdır mənim..."*

Payız bolluq, bərəkət fəslidir. İndi Aşağı Yaycının da yaxşı çağları, yaxşı vaxtıdır. Özü də bu fikri iki yöndə – həm təbii, həm də sosial mənada yozmaq olar. Bu yozumun istər təbiət, istərsə də sosial-iqtisadi tərəfini yuxarıda az da olsa, açıqladım. Ancaq xüsusi vurğulayım ki, Aşağı Yaycıda məskunlaşanların say artımı təkcə bu yerlərin gözəl təbiəti ilə bağlı deyil. Çünki təbiət elə 15-20 il əvvəlki təbiətdir. Sadəcə, indi Aşağı Yaycıda normal həyat tərzi, yaşayış üçün yaradılan şərait təbiətin cazibədarlığını ötüb keçib və məhz bu amil insanları Aşağı Yaycıya çəkib gətirən ən mühüm səbəbə çevrilməkdədir. Mən bu kənddə 15-20 il əvvəl də olmuşam, 10 il, 5 il əvvəl də oraya güzarım düşüb, indi də həm işimlə bağlı, həm də dağlardan ötrü darıxanda yolumu tez-tez oradan salıram. Nədənsə, mənə elə gəlir ki, əvvəllər tədricən dəyişən Aşağı Yaycı son vaxtlar köklü yeniləşmə dövrünü yaşayır və dəyişikliyin sürəti az qala zamanın gedişini qabaqlayır. Sakinlər bu yurda yaşamaları ilə fəxr duyur, sonsuz qürur hissi keçirirlər. Onların hamısının dilinin əzbəridir bu misralar:

*Dağlar dağımdır mənim,*
*Xoş oylağımdır mənim.*
*Bura mənim Vətənim,*
*Həm yaylağımdır mənim...*

***Arpaçayın layla çaldığı Aşağı Yaycının mərkəzində dayanmışam. Günəş çoxdan dağların arxasında gizlənib. Qara zurnanın səsi ərşə yüksəlib dağlarda əks-səda verir. Aşağı Yaycıda toy-büsat qurulub. Şənlik iki gün davam edəcək. Adətləri belədir. Bu kənddə toya dəvətnamə yazılmır, sakinlər özləri könüllü iştirak edirlər. Deməli, sabah gəlin köçəcək, yeni bir ailənin təməli qoyulacaq. Kənddə daha bir ocaq çatılacaq, alovlanacaq. Xoşbəxt olsunlar! Düşünürəm: nə yaxşı ki belə kəndlərimiz var. Demək, adət-ənənələrimiz də, milli dəyərlərimiz də yaddan çıxmayacaq, xalqın yaddaşında yaşayacaq.***

Cəfər ƏLİYEV

---

***Suyun həyat mənbəyi olması haqqında fikirlər insanlara çoxdan məlumdur. Təbiətdə olan bütün canlıların inkişafının su ilə əlaqəli olması həyatımızın sudan asılı olduğunu birmənalı olaraq sübut edir. Elm onu da sübut edir ki, insan bədəninin 80 faizi, Yer kürəsinin isə 2/3 hissəsi sudan ibarətdir. Normal şəraitdə sağlam insanın orqanizmindən gün ərzində 2-3 litr su xaric olunur. Yaşamaq üçün də orqanizmə elə o qədər su qəbul etmək lazım gəlir. Buna görə də insan orqanizmi uzun müddət ac qalmağa dözsə də, susuz qalmaq iqtidarında deyil.***

# Təmiz su sağlamlığın qorunmasında əsas amildir





Maraqlıdır ki, su bizə ana təbiət tərəfindən birbaşa, həm də kifayət qədər təqdim olunduğundandır ki, uzun zaman insanlar suya adi bir nemət kimi baxmışlar. Ancaq elmi-texniki tərəqqinin sonrakı mərhələləri, eyni zamanda qlobal təbiət hadisələri son dövrlərdə təmiz suya olan ehtiyacı çoxaltmaqla bərabər, su haqqında elmi araşdırmalara olan marağı da artırmış, nəticədə, suyun adi olduğu qədər mürəkkəb və möcüzəli bir təbiət neməti olduğunu ortaya qoymuşdur. Maraqlılığını nəzərə alıb suyun bəzi xüsusiyyətlərini oxucularımızla bölüşmək istərdik.

Əvvəlcə onu xatırladaq ki, suyun yaranması elə ana təbiətin yaranması ilə eyni vaxta təsadüf edir. Lakin bu "yaranma prosesi" dünya yarandıqdan bəri davam edir: yağış yağır, kəhrizlər, çeşmələr qaynayır, çaylar axır və sair. Bu prosesdə su buxara dönərək buludlara çevrilir və yenidən qar, dolu, yağış halında təbiətin özünə qayıdır.

Elmi ədəbiyyatda, həmçinin folklorumuzda su, sadəcə, bir nemət kimi deyil, həm də müqəddəsliyi ilə ön planda göstərilir. Su elə bir sehrli nemətdir ki, onun sirləri hələ də elmə məlum deyil. Yeganə nemətdir ki, üç halda – bərk, maye və buxar şəklində mövcudluğunu sürdürür. Suyun müqəddəsliyi özünü yuxularımızda da göstərir. Yuxuyozan alimlər belə qənaətə gəlirlər ki, yuxuda su görmək xoş bir həyata və gözəl bir ruziyə şərh olunar. Saf bir suya atladığını görən kimsə, tez sevincə çatar. Və yaxud uzaq səfərə gedən kimsənin arxasından su atılarsa, yolu aydınlıq olar.

Müasir tibdə, eyni zamanda təbabət aləmində suyun insan orqanizmi üçün böyük faydalarından bəhs olunur. Sağlam bir həyat yaşamaq üçün bütün həkimlərin tövsiyəsi çoxlu su içməkdir. Qan təzyiqinin aşağı olması, əsəb pozuntusu, başağrısı və digər bu kimi rahatsızlıqları su vasitəsilə müxtəlif şəkildə aradan qaldırmaq olar. Ümumiyyətlə, mütəxəssislər hər səhər oyanan kimi bir stəkan ılıq su içməyi məsləhət görürlər. Bundan əlavə, halsızlıq kimi xəstəliklərə, əsəblərin sakitləşməsinə su şırıltısı böyük müalicəvi təsir göstərir.

Yuxarıda qeyd olunan tərəfləri ilə yanaşı, su həm də möcüzəvi xüsusiyyətləri ilə seçilir. Su iki hidrogen və bir oksigen atomunun birləşməsi nəticəsində yaranan molekuldur. Təbiətdə oksigen və hidrogen atomlarına çox miqdarda rast gəlinir. Amma bunlar heç zaman bir anda birbirlərinə bağlanaraq suyu meydana gətirməzlər. Hidrogen yanar qaz, oksigen isə yanmanı sürətləndirən qazdır. Amma çox maraqlıdır ki, hidrogen və oksigen birləşir, nəticədə, su əmələ gəlir. Bu da yanğını söndürür. Həyat üçün ən böyük ehtiyac olan su insanlara Allah tərəfindən hazır olaraq təqdim edilmişdir.

Bəli, milyard illər bundan əvvəl dünyada var olan su bu gün hələ də var. Planetimizin böyük hissəsi su ilə örtülüdür, ancaq 3 faizi təmiz və içilə bilən sulardır. Əlbəttə, təbiətdə bu qədər böyük həcmə malik olan su ehtiyatından cəmi 3 faizinin içmək üçün yararlı olması düşündürücü məsələdir. Dünyada elə ölkələr var ki, içmək üçün təmiz suya böyük ehtiyac duyur. Elə ölkələr də var ki, kifayət qədər su mənbələrinə malik olsa da, bu suyun təmizlənməsinə böyük vəsaitlər xərclənir. Bəzən bu vəsaitlərin xərclənməsi əhalinin öz üzərinə düşür. Kütləvi şəkildə evlərdə quraşdırılan sutəmizləyici məişət qurğularının alınmasından tutmuş bu qurğuların istifadəsi zamanı sərf olunan enerji xərclərinə qədər milyonlarla pul xərclənir. Yəni demək istədiyimiz odur ki, müasir dünyada insanların içməli suya olan ehtiyacını təmin etmək o qədər də asan məsələ deyil. Və nəinki asan deyil, hətta son dövrlərdə qlobal bir problemə çevrilib. Məhz belə bir vəziyyətdə muxtar respublikada bu istiqamətdə atılan addımlar öz əhəmiyyətini bir daha ortaya qoyur. Son dövrlərdə xeyli sayda tarixi kəhrizlərin əsaslı şəkildə təmir olunaraq əhalinin istifadəsinə verilməsi, müxtəlif su mənbələrinin dövlət vəsaiti hesabına bərpası, yaşayış məntəqələrinə yeni su xətlərinin çəkilməsi, istismar müddəti bitmiş xətlərin dəyişdirilərək yenilənməsi və hazırda da davam etdirilən bu işlər həyata keçirilən tədbirlərin miqyasından xəbər verir.

2014-cü il aprelin 7-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də açılış mərasimində iştirak etdiyi Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksi isə xüsusi əhəmiyyəti ilə seçilir. Mövcud mənbələrdən istifadə olunaraq əhalinin ekoloji cəhətdən təmiz və dayanıqlı içməli su ilə təmin edilməsində böyük rol oynayan bu hidroobyekt 90 minə yaxın sakinin yaşadığı Naxçıvan şəhərini və burada yerləşən sənaye obyektlərini fasiləsiz olaraq təmiz su ilə təmin etmək üçün nəzərdə tutulub. Kompleksdə müasir avadanlıqların quraşdırılması, eyni zamanda təmizləmə prosesində xammal kimi ozon və duzdan istifadə olunması suyun insan sağlamlığı üçün yararlılığına tam zəmanət verir. Sutəmizləyici qurğuda bütün iş prosesinin avtomatik olaraq tənzimlənməsi sistemin etibarlılığını və davamlılığını təmin edir. Avtomatik idarəetmə sisteminə malik olan kompleksdə suyun təmizlənməsi üçün yeni nanosüzgəcli qurğudan istifadə olunur ki, bu süzgəc suyun mineral tərkibini saxlamaqla digər zərərli mikrobları tutub saxlayır. Ənənəvi xlorlama üsulunu tarixin yaddaşına göndərən yeni kompleks hələ uzun illər Naxçıvan şəhərinin əhalisinə xidmət göstərəcək, əhalinin içməli suya olan tələbatını ödəyəcəkdir.

Əslində, kompleksin işi haqqında məlumatları bu yazıda xatırlatmamaq və yaxud içməli su təminatı ilə bağlı görülən işləri, sadəcə, rəqəmlərin dili ilə də şərh etmək olardı. Ancaq fikrimizcə, görülən işlərin mahiyyətinə bir daha varmaq, bunun da nəticəsində təbiətin ən gözəl sərvəti olan suya münasibətimizi müsbət mənada dəyişmək hər birimizin borcudur. 50-60 il bundan əvvəl nə belə kompleks yaratmaq mümkün idi, nə də buna ehtiyac var idi. Amma qlobal proseslər ən böyük sərvətlərin belə, azalmayacağına və ya tükənməyəcəyinə zəmanət vermir. Bu gün içməli suya xərclənən dövlət vəsaiti sağlamlığımıza qoyulan investisiya kimi dəyərləndirilməlidir. Unutmayaq ki, muxtar respublikada kütləvi şəkildə yaşıllıqların yaradılması, içməli su mənbələrinin yenidən qurulması, təbiətin qorunması kimi tədbirlərin mahiyyətində dərin və mənəvi bir məqsəd dayanır: insanların sağlamlığını təmin etmək! Çünki sağlam insanın sağlam da gələcəyi olar.

***P.S.** Bəli, su həyat mənbəyi deyil, elə həyatın özüdür. Harada su varsa, deməli, orada həyat var, insan var. Ancaq bəzən mürəkkəb təfəkkürə malik insan mövcud həyatda suyun qiymətini bilməsə də, uzaq planetlərdə həyatın mövcudluğunu bilmək üçün su da axtarır.*

Səbuhi HƏSƏNOV

Jurnalist araşdırması

# Muxtar respublikada mədəniyyətin inkişafına qayğı yüksək səviyyədədir

## *Bəs bu sahədə çalışanların fəaliyyəti necə?*

### *Kitabxanalar hansı funksiyaları yerinə yetirir, daha doğrusu, yetirirmi?*

***Bu gün kitabxana, kitab və mütaliə barədə söhbət düşəndə çoxlarının gəldiyi qənaətlə şəxsən bir ziyalı, mütaliə həvəskarı kimi qətiyyən razılaşa bilmirəm. Qənaətsə bundan ibarətdir ki, XXI əsr internet əsridir və müasir dövrün ən böyük kəşfi olan internetlə hər şeyi öyrənmək mümkündür. İnternetlə nəyisə öyrənmək fikrilə razılaşmaq olar. Ancaq məsələnin digər tərəfi ondadır ki, mütaliə özü asudə vaxtın səmərəli təşkilində ən güclü vasitədir. Daha bir sual meydana çıxır: informasiya texnologiyalarının tətbiqinə bizdən əvvəl başlanmış ölkələrdə nə üçün mütaliə kölgədə qalmayıb?***

Orta və yaşlı nəsil yaxşı xatırlayır ki, 25-30 il öncə kitabxana deyilən ünvanlar miskin, iş şəraiti minimum tələblərə cavab verən uyğunlaşdırılmış binalarda yerləşirdi. Buna baxmayaraq, həmin mədəniyyət müəssisələrində həmişə qələbəlik olurdu. Bu da kitabxana-oxucu əlaqələrinin sıx olduğunu göstərməklə yanaşı, həm də insanların mütaliəyə böyük marağının ifadəsi idi. Kitabxanalarda tez-tez oxucu konfranslarının, kitab müzakirələrinin, viktorinaların keçirilməsi, yazıçı və şairlərlə görüşlərin təşkili kitabxana işinin tərkib hissəsinə çevrilmişdi. Belə mədəniyyət müəssisələrinin qapılarının bağlı olduğunu görəndə əsəbiləşməyimiz də az olmayıb. Sözün həqiqi mənasında, bu ünvanlar əhalinin boş vaxtlarında daha çox üz tutduğu ünvanlar idi. Çünki kitabxanalar qarşıya qoyulmuş vəzifələri yerinə yetirməyə çalışırdı. Başlıca vəzifə isə ondan ibarət idi ki, insanlar mütaliə vasitəsilə öz biliklərini artırsınlar. Zəngin mənəviyyata sahib olmaq üçün bu ən gözəl vasitə idi. Bəs bu gün? Bu suala bir qədər sonra cavab verməyə çalışacağıq.

### *Klub və mədəniyyət evləri insanların asudə vaxtının səmərəli təşkilini təmin etməlidir*

Yenə bir qədər əvvəllərə qayıtmaq istəyirəm. Bu ünvanlarda müxtəlif dərnəklər təşkil olunurdu, insanlar işdən sonrakı vaxtlarını, əsasən, klub və mədəniyyət evlərində keçirməyə üstünlük verirdilər. Bədii özfəaliyyət, dram dərnəklərinin çıxışları təşkil edilirdi. Stolüstü yarışlar keçirilirdi. Bütün bunlar insanların özlərinin könüllü surətdə qatıldıqları tədbirlər idi. Adlı-sanlı sənət adamlarının çoxu böyük səhnəyə ilk addımlarını məhz klub və mədəniyyət evlərindən atıblar. Bu gün isə həmin ünvanların çoxunun adı var. Baxmayaraq ki, bu gün həm kitabxanaların, həm də klub və mədəniyyət evlərinin böyük əksəriyyəti müasir tələblər səviyyəsində inşa olunmuş binalarda yerləşir. Muxtar respublikanın paytaxtı, rayon mərkəzləri ilə yanaşı, ən ucqar sərhəd və dağ, ən kiçik yaşayış məntəqələrində belə, həyata keçirilən kompleks quruculuq tədbirləri çərçivəsində mədəniyyət müəssisələri üçün yeni binaların tikilməsi və onların maddi-texniki bazasının gücləndirilməsi, kitabxanalara yeni kitabların verilməsi, klub və mədəniyyət müəssisələrinin lazımi avadanlıqlarla təchiz olunması bu günün reallığıdır. Təbii ki, müasir iş şəraiti yaradılan belə müəssisələrdə çalışan heç bir kəsin pis işləməyə haqqı yoxdur. Çünki dövlətin yaratdığı bu şərait asanlıqla başa gəlmir. Məlumat üçün bildirək ki, 2014-cü ildə də muxtar respublikanın kənd yaşayış məntəqələrində mədəniyyət müəssisələri üçün də otaqlar ayrılacaq kənd mərkəzlərinin inşa olunması davam etdirilir. Ordubad rayonunun Əylis, Culfa rayonunun Bənəniyar, Şurud, Babək rayonunun Güznüt, Şahbuz rayonunun Nursu, Şərur rayonunun Kürkənd, Diyadin, Dizə, Püsyan və digər yaşayış məntəqələrində hazırda kənd mərkəzləri inşa olunur. Bu ünvanlarda mədəniyyət müəssisələri üçün də müasir iş şəraiti yaradılacaq. Bütün bunlar isə qiymətli sərvət olan insanların asudə vaxtının səmərəli təşkilinə istiqamətlənib.

Ona görə də yazının əsas başlığının ifadə etdiyi həqiqəti bu gün hər birimiz təsdiqləyərik.

Yazının ikinci başlığına isə, təəssüf ki, tam müsbət cavab vermək mümkün deyil. Üç gün ərzində muxtar respublikanın bir sıra kənd yaşayış məntəqələrindəki klub, mədəniyyət evi və kitabxanaların fəaliyyəti ilə yaxından tanış olduqda bu qənaətə gəldik. Düzdür, işi nisbətən qiymətləndiriləsi olan mədəniyyət müəssisələrimiz var. Bu müəssisələrdə çalışanlar yaradılmış şəraitdən səmərəli istifadə etməyə səy göstərirlər.

### *Sərhəd bölgəsi Sədərəkdə bu sahələrin fəaliyyəti qənaətbəxşdir*

İlk olaraq rayonun Mərkəzləşdirilmiş Kitabxana Sisteminə (MKS) baş çəkdik. Burada mədəniyyət müəssisələrinin qarşısında qoyulan vəzifələrin yerinə yetirilməsinin təqdirəlayiq olduğunu gördük. Uyğunlaşdırılmış binada fəaliyyət göstərən MKS işini günün tələbləri səviyyəsində qurmağa çalışır. Sistemin direktoru Kəmalə Əliyeva deyir ki, kollektiv mədəni-kütləvi işin müasir formalarından istifadə etmək, əhaliyə nümunəvi mədəni xidmət göstərmək üçün səyini əsirgəmir. Burada müxtəlif tarixi və əlamətdar günlərin qeyd olunması, sistemə alınmış yeni kitabların təbliği məqsədilə düzəldilmiş sərgilər, yazıçı və şairlərimizin yubileyləri ilə bağlı məlumat guşələri də bu fikri təsdiqləyir. MKS-nin Sədərək kənd filialında da iş pis qurulmayıb. ***Ancaq bu sözləri Qaraağac kənd kitabxanası və klubu haqqında demək mümkün deyil.*** Bu məqalədən sonra, yəqin ki, həmin yaşayış məntəqəsindəki mədəniyyət müəssisələri öz işlərində dönüş yaradacaq, mövcud şəraitdən səmərəli istifadə edəcəklər.

### *Bəs Kəngərli və Şərur rayonlarında necə?*

Kəngərli rayonunun bir neçə kəndində olduq. Ötən il istifadəyə verilmiş Xok Kənd Mərkəzində fəaliyyət göstərən kitabxananı çıxmaq şərtilə digər ünvanlarda gördüyümüz vəziyyət barədə yaxşı sözlər demək mümkün deyil. Həmin kitabxananın fəaliyyəti razılıq doğursa da, ***kənddəki mədəniyyət evinin qapısı bağlı idi.*** Böyükdüz, Kərki kəndlərindəki mədəniyyət müəssisələrinin qapıları açıq olsa da, bu ünvanlarda çalışanların işinə heç də müsbət qiymət vermək olmaz. Yurdçu kənd kitabxanası iki ilə yaxındır ki, kənd məktəbində yerləşdirilib. ***Bu dövr ərzində kitabxananın qapısını açıq görən olmayıb. Heç burada kimin işlədiyindən də xəbəri olan yoxdur.*** Mədəniyyət müəssisəsi kəndin daha çox ziyalısının toplaşdığı məktəbdə yerləşir. Nə üçün gələcəyimiz etibar edilən bugünkü gənclərə elmlərin sirlərini öyrədən müəllimlər buna öz etiraz səslərini qaldırmırlar? Belə çıxır ki, məktəbdə çalışan müəllimlər də mütaliənin daşını atıblar. Nəticə çıxarmağı oxucuların ixtiyarına veririk.

***Şərur rayonunun Zeyvə kənd kitabxanasına da baş çəkdik.*** Müasir arxitektura üslubunda tikilmiş Zeyvə Kənd Mərkəzinin binasında kitabxana üçün 2 otaq ayrılıb. Kitabxana klassik Azərbaycan ədəbiyyatı nümunələrindən tutmuş çağdaş dövrümüzədək olan ədəbiyyatlarla, dünya ədəbiyyatının korifey sənətkarlarının əsərləri ilə zənginləşdirilib. Burada çalışan Günel Şirəliyeva ixtisaslı kadrdır. Onun fəaliyyəti ilə tanışlıq zamanı müəyyən etdik ki, işini sevir. Bununla belə, kitabxanada, hələlik, oxucularla əlaqə zəifdir, qeydiyyat kitabı yoxdur.

***Həmin binada yerləşən mədəniyyət evinin isə qapısı bağlı idi.***

### *Özünəməxsus kadryerləşdirmə təcrübəsi*

Culfa rayonundayıq. Öyrəndik ki, Ərəzin kənd mədəniyyət evinin müdiri Mahmud Zeynalov Tovuz Maliyyə-İqtisadiyyat Kollecinin qiyabi şöbəsinin tələbəsidir. Bu mədəniyyət müəssisəsinin iş və tədbirlər planları ilə tanış olmaq istədik. İnsafən, onlar var idi. ***Lakin planların plan tutmaq xatirinə tutulması gözümüzdən yayınmadı. Deməli, tədbirlər planına əsasən gələcəkdə görüləcək işin də belə olacağı istisna deyil. Burada təşkil olunmuş dərnəklərlə maraqlansaq da, sualımıza cavab ala bilmədik. Yeri gəlmişkən, elə digər mədəniyyət evlərində də vəziyyətin belə olduğunu gördük. Onu da deyək ki, adıçəkilən mədəniyyət evində çalışan 5 nəfərdən 3-ü yerində yox idi. Haqlı olaraq burada bir sual meydana çıxır: Maliyyə-İqtisadiyyat Kollecinin qiyabiçi tələbəsi hansı keyfiyyətlərinə görə mədəniyyət evinə müdir təyin olunub?*** Həmin kənddəki kitabxananın müdiri Müşkünaz Qafarovanın dediyinə görə, Bakı Dövlət Pedaqoji Kollecini bitirib. Buna sözümüz yox. Məsələ ondadır ki, burada da sənədləşmə işi zəifdir. Kitabxana-oxucu əlaqələri yox səviyyəsindədir. Tədbirlərin keçirilməsi yalnız sənəd üzərindədir. Onda belə bir sual yaranır: ***insanların asudə vaxtının səmərəli təşkili kimi mühüm bir vəzifəni yerinə yetirmək üçün yaradılmış mədəniyyət müəssisəsində adı əməkhaqqı cədvəlində gedən 5 nəfərin dövlət büdcəsindən, necə deyərlər, müftə-müsəlləm əməkhaqqı almasına şərait yaratmağa nə ehtiyac var?***



Üz tuturuq Əbrəqunus kənd kitabxanasına. Burada da qəribə bir təzadla rastlaşırıq. ***Kitabxananın müdiri Səkinə Qasımova ixtisasca tibb işçisidir*** (görünür ki, mədəniyyət müəssisələrinin kadrlarla təminatında Culfa Rayon Mədəniyyət və Turizm Şöbəsi özünəməxsus təcrübədən istifadə edir). Kitabxanadakı iş və tədbirlər planları ilə tanış olarkən daha bir məqam diqqətimizi cəlb etdi. ***Həmin planlar bundan əvvəl gördüyümüz mədəniyyət müəssisələrindəki iş planlarının eyni idi. Aydın oldu ki, həmin planlar rayon Mədəniyyət və Turizm Şöbəsində hazırlanaraq müəssisələrə göndərilir. Bu planlar günümüzün ən adi tələblərini əks etdirmir. Müxtəlif tarixi, əlamətdar və bayram günləri planlarda özünə yer almayıb. İkinci bir tərəfdən, ancaq başlıqları fərqli olan (iş planı, tədbirlər planı) həmin "planlar" nöqtəsinə, vergülünəcən eynidir. Görünür ki, bu sənədləri tərtib və təsdiq edənlər həmin planların daşıdıqları funksiyalardan xəbərsizdirlər.***

Bəs Əbrəqunus kəndinin mədəniyyət evində vəziyyət necədir? Burada bədii rəhbər və xadimədən başqa heç kim yox idi. Əvvəlki mədəniyyət müəssisəsində gördüyümüz nöqsanları burada da müşahidə etdik. Ona görə də mədəniyyət evinin fəaliyyətinin hansı səviyyədə qurulduğu barədə geniş danışmağa ehtiyac yoxdur. Rayonun Saltaq kənd mədəniyyət evində iş nisbətən yaxşı qurulub. Ancaq kitabxananın qapısı bağlı olduğu üçün bu mədəniyyət müəssisəsinin fəaliyyəti ilə tanış ola bilmədik. ***Əlincə və Xanəgah kəndlərində də eyni vəziyyətlə rastlaşdıq.***

### *Müşahidələrimizi Babək rayonunda davam etdiririk*

Paytaxt şəhərimizin bir addımlığında yerləşən ***Babək rayonunun Şəkərabad və Yarımca kəndlərindəki mədəniyyət müəssisələrinin qapıları bağlı idi. Kərimbəyli kəndindəki kitabxana kadr olmadığından fəaliyyət göstərmir.*** Məmmədrzadizə Kənd Mərkəzində cəmi 1 nəfərlə rastlaşa bildik. O da kənd kitabxanasının xadiməsi idi. Burada fəaliyyət göstərən mədəniyyət evi ilə yanaşı, digər qurumların da qapıları bağlı idi. ***Məzrə, Nəzərabad kəndlərindəki kitabxanaların qapıları bağlı idi.*** Nəzərabad kəndinin icra nümayəndəsi Salman Tumasovdan mədəniyyət evinin fəaliyyəti ilə bizi tanış etməyi xahiş edəndə bildirdi ki, bu yaşayış məntəqəsində kadr olmadığından mədəniyyət evi fəaliyyət göstərmir, kitabxanaçıya isə o, özü icazə verib. ***Didivar kəndində icra nümayəndəsini axtarsaq da, tapa bilmədik. Burada hər iki mədəniyyət müəssisəsinin qapıları iş vaxtı olmasına baxmayaraq, bağlı idi.***

### *Son söz yerinə*

Nəhayət, mədəniyyət müəssisələri ilə tanışlıq zamanı gəldiyimiz qənaət belə oldu ki, həmin obyektlərin fəaliyyətini aşağıdakı kimi qruplaşdırmaq olar:

*1. Fəaliyyət göstərməyə çalışanlar (təəssüf ki, belə mədəniyyət müəssisələri çox azdır).*

*2. Öz işini sənədləşmə işi ilə bitirənlər (ancaq bu cür fəaliyyət göstərən müəssisələrdə səthi, sənədləşmə xatirinə sənəd tərtib edənlər, müxtəlif dövlət sənədlərinin doldurulması qaydaları barədə təsəvvürü olmayan işçilərin çalışdığını xüsusi qeyd etmək istəyirik).*

*3. Vəzifə borcuna məsuliyyətsizlikdən qapıları bağlı olan müəssisələr (belə müəssisələrdə çalışanlar istədikləri vaxt işə gəlib, istədikləri vaxtda da gedirlər).*

Təbii ki, mədəniyyət müəssisələrinin fəaliyyəti və ya fəaliyyətsizliyi rayonların Mədəniyyət və Turizm şöbələrinin işinin göstəricisidir. Mədəniyyət müəssisələri öz işlərində ciddi dönüş yaratmalı, əhalinin asudə vaxtının səmərəli təşkilini təmin etməli, yaradılan şəraitə əməli işlə cavab verməyə çalışmalıdırlar.

Bir qənaətimiz də odur ki, kənd yaşayış məntəqələrindəki inzibati ərazi dairəsi üzrə nümayəndələr də öz vəzifə borclarına laqeyd yanaşırlar. Elə adlarını yuxarıda sadaladığımız mədəniyyət müəssisələrinin yerləşdikləri binalarda icra nümayəndələrindən bir-ikisini gördük. Onlara xatırlatmağı özümüzə borc bilirik ki, muxtar respublikamızda mahiyyət və məzmunca yeni obyektlər olan kənd mərkəzlərinin açılış mərasimlərində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov inzibati ərazi dairəsi üzrə nümayəndələrə öz tapşırıqlarını verir. Belə mərasimlərdən birində Ali Məclisin Sədri demişdir: ***"Kənddə əhalinin rahatlığı həm də burada fəaliyyət göstərən icra nümayəndəliyinin fəaliyyətindən asılıdır. Dövlətimiz icra nümayəndəliklərinə yüksək şərait yaradır ki, onlar insanlara günün tələbləri səviyyəsində xidmət göstərsin. Ona görə də dövlət orqanlarında nizam-intizam gücləndirilməli, iş vaxtından səmərəli istifadə olunmalı, dövlət qurumları, idarəetmə strukturları üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməli, işlərin günün tələbləri səviyyəsində qurulmasını daim diqqət mərkəzində saxlamalıdırlar".***

*P.S. Araşdırmalarımız davam edir.*

**Muxtar MƏMMƏDOV**

# Gənclər üçün "Girdab" filmi nümayiş olunub

Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi və "Gənc Vətənpərvərlər" İctimai Birliyinin təşkilatçılığı ilə gənclərin Vətənə məhəbbət, dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunması məqsədilə "Girdab" bədii filmi nümayiş olunub. Tədbirdə muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri iştirak ediblər. Film başlanmazdan öncə Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri Canməmməd Canməmmədov çıxış edərək tədbirin mahiyyəti barədə məlumat verib. O bildirib ki, təşkilatçılar tərəfindən bu cür tədbirlər mütəmadi olaraq həyata keçirilir.

Qeyd edək ki, bu səpgidə filmlərin qarşıdakı aylarda da nümayiş etdirilməsi nəzərdə tutulub.

**Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Məmmədov Nəsimi Kamil oğlunun adına verilmiş Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Kəngərli rayonunun Yurdçu kənd sakini Məmmədov Mehdi Cəbi oğlunun adına olan JN-259[A] inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 822